No: 03 2025
https://doi.org/10.64400/ea25-3-05
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# NİTQ İNKİŞAFININ LİNQVİSTİK ƏSASLARI

**Günay ŞİRƏLİYEVA**

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
*Yazışılan müəllif:* shiraligunay@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 11.08.2025*
*Nəşr edilmə tarixi: 28.10.2025*

**AÇAR SÖZLƏR:**
Azərbaycan dili, nitq inkişafı, lüğət üzrə iş, cümlənin təhlili, şifahi və yazılı nitq.

**XÜLASƏ**

İbtidai siniflərdə tədris edilən əsas fənlərdən biri də məhz Azərbaycan dili fənnidir. Azərbaycan dili fənninin qarşısında çox böyük və çoxcəhətli vəzifələr dayanır. Bu fənnin əsas məqsədi ümumi nitq və dil bacarıqlarını formalşdırmaq və bununla da şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdir. Azərbaycan dili dərslərində şagirdlərin nitqinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb etməli, bu istiqamətdə müəyyən tədbirlər tətbiq edilməlidir. Bilirik ki,dil daim təkmilləşən və inkişaf edən bir hadisədir. Dilinin tədrisində şagirdlər dilə yiyələnir və nitq prosesində bundan istifadə edirlər. Düzgün nitqə yiyələnmənin yolu dilə necə yiyələnməkdən asılıdır. Ona görə də Azərbaycan dilində əsas məqsəd şagirdlərin düzgün, rabitəli nitqə yiyələnmələrini təmin etməkdir. Bu gün şagird zəngin lüğət ehtiyatına malik deyilsə, qrammatik və semantik cəhətdən sözlərin təbiətinə bələd deyilsə, sözləri cümlədə yeri yerində işlədə bilmirsə fikrin düzgün ifadəsinə də malik olmayacaqdır. Qeyd edək ki, şagirdlərin nitqinin inkişaf etdirilməsi kor təbii proses olmayıb lüğət üzrə işin düzgün təşkilindən asılıdır. Dilin əsas leksik vahidi məhz sözdür. Bu baxımdan da, sözün leksik, qrammatik, fonetik xüsusiyyətlərini, semantik valentliyini, cümlə daxilində leksik-qrammatik münasibətini bilməli və cümlə axilində düzgün istifadəsinə nail olunmalıdır. Bəzən şagird nitqində diqqət çəkən məqamlardan biri onların cümlədə söz sırasını pozması hallarıdır. Cümlədə sözlərin sırasını dilimizə müvafiq şəkildə gözləyə bilməsi şagird üçün çox əhəmiyyətlidir, əks halda o, fikrini müsahibinə düzgün çatdıra bilməz. Bu araşdırmamızda şagird nitqinin inkişafı diqqətdə saxlanılmış, mühüm fikirlər təqdim edilmişdir.

## GİRİŞ

Bildiyimiz kimi, şagird şəxsiyyətini səciyyələndirən müxtəlif cəhətlər var. Bu cəhətlər arasında birincisi yerdə onun nitqi dayanır. Hər bir insan müəyyən bilik və bacarıqlara sahibdir. İnsanın sahib olduğu bilik, bacarıq səviyyəsi, mədəniyyəti onun nitqində təzahür edir. Bu mənada, şagirdlərin nitqinin inkişafı ümumtəhsil məktəblərinin qarşısında duran əsas vəzifələrdən biridir. Nitqi formalaşdırmaq, inkişaf etdirmək, şagirdlərə savadlı və düzgün danışmağı öyrətmək bu gün zamanın tələbi kimi çıxış edir.

Bu gün təhsil sahəsində yeni islahatlar həyata keçirilir, təhsilin məzmunu yenilənir, yeni təlim texnologiyalarının tətbiqi ibtidai təhsilin də qarşısına mühüm vəzifələr qoyur. İbtidai siniflərdə tədris edilən əsas fənlərdən biri də məhz Azərbaycan dili fənnidir. Azərbaycan dili fənninin qarşısında çox böyük və çoxcəhətli vəzifələr dayanır. Doğrudur, fənnin başlıca məqsədi "ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir"( Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları, 2008).

Hələ Ulu öndərimiz Heydər Əliyevin 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında verdiyi fərmanda da Azərbaycan dilinin tədrisi məsələsinə diqqət çəkilmişdir.

## ƏSAS HİSSƏ

İbtidai siniflərdə Azərbaycan dili aparıcı fənndir və bu fənnin əsas prinsipləri var. Əsas prinsiplərdən biri kimi şagirdlərdə ibtidai siniflərdən başlayaraq şifahi və yazılı nitq bacarıqlarının inkişaf etdirilməsidir. Belə mühüm bir vəzifənin yerinə yetirilməsində isə əsas yük məhz müəllimlərin üzərinə düşür. Y. Kərimov çox gözəl qeyd edirdi ki: "Müəllim Azərbaycan dili dərslərini o zaman səmərəli təşkil edə bilər ki, öyrədəcəyi dil bölməsinin qarşısında qoyulan məqsədi dəqiq müəyyənləşdirə, nəzəri və praktik materiallar arasında qarşılıqlı əlaqəni təmin edə bilsin" Kərimov Y, 2003).

Demək ki, Azərbaycan dili dərslərində şagirdlərin nitqinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb etməli, bu istiqamətdə müəyyən tədbirlər tətbiq edilməlidir.

Azərbaycan dili dərslərində ibtidai sinf şagirdlərinin nitqinin inkişafı təlim prosesində reallaşdırılan aşağıdakı fikirlərə əsaslanır:

Linqvistik (söz, nitq, nitqin növləri, intonasiya, nitqdə orazlılıq yaradan vasitələr).

Psixoloji (ibtidai sinf şagirdlərinin dil vasitələrini dərketmə prosesi).

Didaktik (ana dili dərslərində nitq inkişafı üzrə işlərin təşkili yolları).

Onu da qeyd edək ki, nitqin elmi əsasın dil, nəzəri dilçilik təşkil edir. Eyni zamanda, Müasir Azərbaycan dilinin nəzəri bazası, dilə dair fundamental elmi tədqiqatlar da dilin elmi səviyyədə öyrənilməsi üçün əsas bazalardan hesab edilir. Bu bazalar əsasında Azərbaycan ədəbi dilinin inkişafı, əbədi dil normaları haqqında müəyyən məlumatlar əldə edilir. Azərbaycan dili elə bir fənndir ki, dili yüksək səviyyədə öyrənməklə nitq inkişafı üzrə aparılan işlərdə uğur qazanmaq mümkündür.

Qeyd etdik ki, dil daim inkişaf edən, təkmilləşən bir hadisədir. Azərbaycan dilinin tədrisində şagirdlər dilə yiyələnir və nitq prosesində bundan istifadə edirlər. Düzgün nitqə yiyələnmənin yolu dilə necə yiyələnməkdən asılıdır. Ona görə də Azərbaycan dilində zəngin lüğət ehtiyatına malik olmadan, qrammatik və semantik cəhətdən sözlərin təbiətinə bələd olmadan, sözləri cümlədə yeri yerində işlətməyi, rabitəli nitqə daxil etməyi bacarmadan fikdin düzgün ifadəsi heç də mümkün deyildir. cümlədə yeri yerində işlətməyi və rabitəli mətnə daxil etməyi bacarmadan fikrin olduğu kimi ifadəsi mümkün deyildir. Əgər ki, zəngin lüğət ehtiyatına malik deyilsənsə, sözlərin qrammatik və semantik cəhətdən təbiətinə bələd deyilsənsə, demək gözəl nitqə malik deyilsən.

F.de Sössür dil ilə nitqin qarşılıqlı vəhdətdə olduğunu bildirməklə bərabər. qeyd edirdi ki, onlardan biri digəri üçün şərt hesab edilməlidir. Tarixən nitq faktlarının həmişə dili qabaqladığı da qeyd edilir. Sössür çox haqlı olaraq dilin kollektivin malı, ictimai hadisə olduğunu, cəmiyyətdən kənarda olmadığını, onun strukturunda məcburi işarələrin olduğunu da qeyd edirdi. O bildirirdi ki, nitq insanların bir-biri ilə ünsiyyəti prosesində fərdi şəkildə meydana çıxan ayrıca aktdır.

Qeyd edildiyi kimi, nitq və təfəkkür bir-biri ilə bağlıdır. Təfəkkür öz ifadəsini nitqdə tapır. Nitq yoxdursa, demək təfəkkürün inkişafından bəhs etmək də düzgün deyildir. Bu mənada, şagird təfəkkürünün inkişafı üçün onun füzgün nitqə yiyələnməsi əsas şərtlərdən biri hesab edilməlidir. Bunun üçün şagird zəruri sözlər, ifadələr tapmalı, onları ifadə edəcəyi fikrin məzmununa uyğun cümlələrdə işlətməyi bacarmalıdır. Burada başlıca məqsəd düzgün nitqin nümayişidir. Çünki işlədilən hər bir dil materialı fikrin ifadə forması kimi təzahür edir. Biz nitq deyəndə təkcə yazılı və şifaho nitqi deyil, geniş mənada daxili nitqi, yəni dil vasitələrinin köməyi ilə baş verən təfəkkür prosesini də nəzərə almalıyıq.

A.A.Kitayev daxili nitq prosesində də nitqin hərəkəti və eşitmə analizatorları arasında qarşılıqlı əlaqə olduğunu qeyd edir. Bu isə o deməkdir ki, daxili nitq yalnız kənardan müşahidə edən üçün səslənmir. A.A.Kitayev onu da qeyd edir ki, fikirləşənin özü üçün "daxili" səslənmə qalır. Həraki analizatorlar tamamilə ləngidikdə belə, yenədə o, həmin sözləri eşidə bilir.

Nitq elə bir prosesdir ki, sözlərin sərrast düzümündən yaranan möcüzəli söz, sehrli ifadələr toplusudur. Nitqin zənginliyinin başlıca mənbəyi isə canlı xalq danışıq dili, xalq deyimləridir.

Bunlarsız nitqi təsəvvür etmək mümkün deyildir. Çünki xalq danışıq dili nitqə xüsusi bir ahəngdarlıq, saflıq gətirir, fikirin estetik gücünü daha da artırmış olur. Xalq danışıq dilində olan söz və ifadələrin sehri ondan ibarətdir ki, bu sözlər qulaqda gərginlik yaratmır, eşitmə analizatorlarına qeyri-rəsmi çalar gətirən impuluslar vermir.

L.V. Şerba yazırdı ki, danışıq nitqi xalq dili əsasında qurulur. Bu dillə fikrin obrazlı ifadəsində hər cür fonetik ixtisaslar, gözlənilməz forma yaradıcılığı, vərdiş edilməmiş söz yaradıcılığı, ilk baxışda əcaib görünən sözlərdən istifadə edilməsi, nəhayət, sintaktik formaların hər cür pozulması baş verir. Deməк ki, ibtidai sinif şagirdlərinin nitqinin özünəməxsus stilistik xüsusiyyətləri vardır. Ana dili təlimin mühüm vəzifələrindən biri şagirdlərdə fikrini düzgün ifadə etməyə maraq oyatmaqdan ibarət olmalıdır.

Dilə həssaslığın tərbiyə edilməsi əslində şagirdlərdə müəyyən motiv, sinifdə xüsusi situasiyalar yaranmasına səbəb olur. Bəzi müəlliflərə görə, şifahi nitqin iki inkişaf yolu var. Bu fikri Rubinşteyn belə əsaslandırırdı:

a) Fizki və mənəvi inkişaf ilə müəyyənləşən stixiyalı yol;

b) Fizki və mənəvi inkişafdan ayrılmayan, ictimai mühitin köməyi ilə şüurlu, məqsədyönlü yol.

Bildiyimiz kimi, şifahi nitqin başlıca cəhəti fikrin yığcamlığı, cümlələrin yarımçıqlığıdır. Onu da qeyd edək ki, nitq inkişafı dilçiliyin tətbiqi bölməsi olmaqla düzgün danışmaq məsələlərinə əhatə edir. Nitq inkişafına dair yazılmış əsərlərdə, adətən nitqin düzgünlüyü məsələləri mətkəzi yerlərdən birini tutur. Nitqin düzgünlüyündən isə o zaman danışmaq olar ki, o, dil normalarını pozmasın, bu normalardan düzgün stifadə edilsin.

Dil normalarına isə daxildir:

fonetik norma;

leksik norma;

qrammatik norma.

Psixoloq A.A. Lyublinskaya yazır: "dil ümumidir, nitq isə dildən fərqli ifadə prosesidir. Ona görə də nitq dildən kasıb, həm də ondan zəngindir. İnsan öz ünsiyyət təcrübəsində, adətən, doğma dilin zənginliyini təşkil edən lüğətin və müxtəlif qrammatik quruluşun yalnız kiçik bir hissəsindən istifadə edir.

Bununla yanaşı, nitq dildən zəngindir, insan hər hansı şey haqqında danışmaqla ona və müsahibinə öz münasibətini bildirir.Onun nitqi intonasiya ifadəliliyinə malik olur, ritmi, sürəti, xarakteri dəyişir. adam istədiyi sözün mənasın daha çox şey deyə bilir, lakin adamın öz fikrini başqasına kifayət qədər dəqiq və incəliklə verə bilməsi, ona təsir etməsi, düzgün başa düşməsi üçün o, ana dilinə gözəl yiyələnməlidir" (Kərimov Y, 2013).

Demək ki, şagirdlərin nitqini inkişaf etdirmək, onların gözəl nitqə sahib olmalarının mərkəzində ana dilini bilmək, söz və ifadələri seçəndə əziyyət çəkməmək dayanır. Bunu yolu isə lüğət üzrə işin düzgün təşkilindən keçir. Dilin əsas keksik vahidi söz hesab edildiyi üçün sözlərin düzgün seçilməsi, nitq prosesində onlardan düzgün istifadə edilməsi mütləq şərtlərdən biridir. Bu baxımdan da, şagirdlər sözün leksik, qrammatik, fonetik xüsusiyyətlərini, semantik valentliyini, cümlə daxilində leksik-qrammatik münasibətini bilməli və cümlə axilində düzgün istifadəsinə nail olunmalıdır.

Lüğət işinin metodikasının əsas istiqamətləri aşağıdakılar hesab olunur:

- şagirdlərin lüğət ehtiyatının yeni sözlərlə və artıq məlum olan sözlərin mənaları ilə zənginləşdirilməsi,
- lüğətin aydınlaşdırılması,
- lüğətin aktivləşdirilməsi,
- qeyri-ədəbi sözlərin ləğv edilməsi,
- ifadələr və cümlələr üzərində işin qurulması (Xəlilov V, 2007).

Müəllim tədris prosesində bunları nəzərə almalı lüğət üzrə işi düzgün həyata keçirməlidir.

Söz hər zaman şagirdin idrak obyekti olmaqla bir tərəfdən leksik, digər tətəfdən qrammatik mənaya malikdir. Sözün leksik mənası dedikdə onun əşya və hadisələri ifadə etmək qabiliyyəti,

sözün maddi mənası obyektiv varlığın müxtəlif hadisələri ilə münasibəti nəzərdə tutulur. Qrammatik məna isə hər cür konkretlikdən məhrim olan ümumiləşmiş mənadır(Cəfərova N, 2018).

Demək ki, şagirdlərin ibtidai siniflərdən lüğət üzrə bilik və bacarıqlara yiyələnmələri olduqca vacibdir. Oxu, praktik işlər, ətrafdakılarla ünsiyyətə girmək şagirdlərin lüğət ehtiyatını həm yeni sözlərlə, həm də terminlərlə zənginləşdirir. Bu da onların nitqinə həm keyfiyyətcə, həm də kəmiyyətcə müsbət təsir etmiş olur.

Lüğət ehtiyatını zənginləşdirmək üçün öyrədilən yeni səs və hərflərə dair verilmiş sözlər, həmin hərflərin işləndiyini əks etdirən şəkillərin əhəmiyyəti olduqca böyükdür. Şəkilllərin rolu ondan ibarətdir ki, şagirdlər sözün mənasını şəkillər əsasında daha tez başa düşmüş olurlar.

Demək, nitq inkişafının əsas meyarı söz üzərində işdir. Söz üzərində iş düzgün təşkil edilməzsə, şagirdlərin lüğəti zənginləşdirilməzsə bu zaman onların nə nitqi, nə də təfəkkürü inkişaf edə bilməyəcəkdir.

Buna görə də lüğət üzrə iş prosesində sözlər seçilərkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

sözün çoxmənalılığı;
omonim, sinonim, antonim olması;
sözün həqiqi və məcazi mənası;
sözün çoxişləkliyi;
sözün morfoloji quruluşu;
sözün izahı və təhliletmə imkanları;
sözün orfoqrafik cəhəti;
sözün milli və ya alınma olması;
sözün termin olub-olmaması (Cəfərova N, 2018).

Şagirdlərin nitqinin inkişafı üzrə işi düzgün təşkil etmək üçün ilk növbədə müəllim dilin qrammatikasını mükəmməl bilməli, dilçilik elminin nailiyyətlərinə, ədəbi dil normalarına istinad etməlidir. Bütün bunlar isə şagird nitqinin inkişafında öz bəhrəsini vermiş olacaqdır.

B.H.Qolovinin fikrincə,.. nitq ola bilər ki, tam düzgün olsun, başqa sözlə, dil normalarını pozmasın, lakin asan şeyi başa düşməyə imkan verməsin. Ola bilər ki, məntiqi cəhətdən qeyri-dəqiq və ziddiyyətli, lakin düzgün olsun. Ola bilər ki, nitq düzgün, lakin müəyyən hallarda tamamilə yersiz olsun".

Düzgün, gözəl nitqə yiyələnmənin yolu ədəbi dilin normalarına necə yiyələnməkdən də çox asılıdır. Ədəbi dilin normalarını bilmədən düzgün nitqə yiyələnmək qeyri mümkündür. Ona görə də ədəbi dilin normalarının mənimsənilməsindən o zaman danışmaq olar ki, şagirdlər bu normalardan düzgün istifadə edə bilsinlər.

Ədəbi dilin normaları dedikdə, bura daxildir :

fonetik norma
orfoepik norma
orfoqrafik norma
leksik norma
morfoloji norma
sintaktik norma
semantik norma və s. normalar.

Bütün bu normalar şagirdlərə mənimsədilməli, onlar nitqlərində bu normalara əməl etməlidirlər. Fonetik norma dedikdə, səslərin düzgün tələffüzü nəzərdə tutulur. Söz daxilində sözlərin düzgün tələffüzü nitqi şərtləndirən əsas əlamətlərdən biridir.

Bu baxımdan, ibtidai sinif şagirdlərinə fonetik normaları mənimsətmək lazımdır ki, onlar sözdə səslərin düzgün tələffüzünü, onların bir-birindən fərqləndiyinin dərk edə bilsinlər. Fonetik normanı şagirdlərə mənimsətmədən sözlərin düzgün tələffüzünə nail ola bilmək mümkün deyildir. Yalnız fonetik normanı mənimsəyən şagirdlər səsləri düzgün tələffüz edir və sələri fərqləndirə bilirlər.

Leksik norma hər kəsdən sözün mənasına bələd olmağı, onu düzgün , yerində işlətməyi tələb edir. Söz yerində işlənmirsə, demək, fikir düzgün ifadə olunmur. Bu da nitq mədəniyyətinin tələblərini ödəmir. Ədəbi dildə loru, vulqar sözlərin işlənməsi yol verilməzdir.

Orfoepik tələffüz - şifahi nitqin düzgünlüyü, optimallığı, şüurluluğu, ifadəliliyi, ədəbi tələffüzün-orfoepiya və intonasiyanın gözlənilməsi, kitab tələffüzünə yol verilməməsi deməkdir.

Müəllim dərs prosesində bütün bunlara diqqət yetirməli, şagirdlərin nitqinə nəzarəti gücləndirməlidir. İbtidai siniflərdə şagirdlərin nitq vərdişlərinə düzgün yiyələnmələri sonrakı təhsil illərində onların dadına çatacaqdır.

Bütün bunlar onu deməyə əsas verir ki, şagirdlərin ibtidai siniflərdən lüğət üzrə bilik və bacarıqlara yiyələnmələri labüddür. Şagirdlərin istər oxu prosesində, istər ünsiyyətdə lüğət ehtiyatına yeni sözlər daxil olur və zaman-zaman onlar bu sözlərin mənalarını da dərk edərək nitqlərinə daxil etmiş olurlar.

İbtidai siniflərdə morfologiyanın tədrisi zamanı şagird nitqinin inkişafı sanki yeni bir mərhələyə daxil olmuş olur. Morfologiya nitq hissələrinin cumlənin təşkilində iştirakını və fikrin ifadə olunmasında şəkilçi morfemlərin funksiyasının zəruriliyini əsaslandırır. Cümlədə işlənən hər bir söz bu və ya digər nitq hissəsinə aiddir. Sintaksis qrammatikanın tərkib hissəsi olmaqla, şagirdlərin nitq inkişafı baxımından da mühüm əhəmiyyətə malikdir.

Demək, sintaksis də düzgün nitqin əsas amili kimi çıxış edir. Cümlənin qrammatik quruluşu, intonasiya -əsassən səsin qalxması və enməsi, melodika, diksiya, tembr, fasilə, səsin gücü və tempi ilə birbaşa əlaqədardır. Ona görə də şagirdlərə ifadəli oxumağı və danışmağı öyrətmək lazımdır ki, düzgün nitqə yiyələnə bilsinlər. Bunun üçün şagirdlər cümlənin tərkibi, baş və ikinci dərəcəli üzvlər haqqında biliklərə yiyələnməli, nitq prosesində bunlardan düzgün istifadəni həyata keçirməlidirlər. Yalnız bu kimi biliklərə yiyələnməklə şagirdlər düzgün cümlə qurmağı və fikirlərini ifadə etməyi bacarmış olurlar. Onu da qeyd edək ki, cümlənin qurulmasında söz sırası da mühüm əhəmiyyət kəsb edir ki, şagirdlərə bunlar haqqında da müfəssəl məlumatlar verilməlidir.

Bəzən şagird nitqində diqqət çəkən məqamlardan biri onların cümlədə söz sırasını pozması hallarıdır. Cümlədə sözlərin sırasını dilimizə müvafiq şəkildə gözləyə bilməsi şagird üçün çox əhəmiyyətlidir, əks halda o, fikrini müsahibinə düzgün çatdıra bilməz. Bu baxımdan da, cümlənin təhlili və tərkibi haqqında da məlumatlara yiyələnməklə şagirdlər düzgün nitqə yiyələnmiş olacaqlar.

Hər bir cümlənin özünəməxsus növü və məzmunu da olur ki, şagirdlər bunlar haqqında əvvəlcədən düşünməli, düzgün nitq nümayiş etdirməlidirlər. Şagird cümlənin növünü və məzmununu əvvəlcədən düşünməyi bacarmalıdır. Belə olduqda şagird rabitəli nitq qurmağı bacarır, cümlələr arasında məna əlaqəsi yaratmağı, onları bir məna ətrafında birləşdirməyi, inşa, esse yazmağı öyrənirlər. Bu zaman şagird haqqında danışacağı və ya inşa, esse yazacağı əşyanı və ya hadisəni aydın təsəvvür etməli, fikrən onu hissələrinə ayırmalı, ardıcıllığını müəyyənləşdirməli və öz fikrini dil cəhətdən düzgün ifadə etməyi bacarmalıdır.

Dil öz ifadəsini nitqdə tapır. Dilə yiyələnmədən nitqə sahib olmaq mümkün deyildir. Ona görə də çalışmaq lazımdır ki, tədris prosesində şagirdlər dilimizin qrammatikasına mükəmməl yiyələnə bilsinlər.

Nitqin əsasında söz dayanır. Nitq geniş bir sahəni əhatə edir. Professor N. Abdullayevin də qeyd etdiyi kimi: "Bura mədəni nitqi şərtləndirən əsas amillər, nitq mədəniyyəti və ədəbi dil normaları, nitq mədəniyyəti və danışıq etikası, mədəni nitqin ictimai və sosial iqtisadi inkişafındakı rolu, nitq mədəniyyətinə yiyələnməyin yolları, üsulları və digər məsələlər daxildir" Abdullayev N, 2013).

Demək ki, nitq dedikdə, dil ahidi olan sözələ işləmək bacarığının formalaşdırılması başa düşülür ki, bütün bunları da dərs prosesində müəllim şagirdlərinə aşılamış olur.

Bütün bunlar isə o deməkdir ki, sözün mahiyyətini, onun leksik-semantik xüsusiyyətlərini dəqiq başa düşmədən tədris zamanı şagirdlərin nirqə yiyələnmələrini elmi-metodiki əsasda qurmaq heç də mümkün deyildir.

## NƏTİCƏ

DeməK ki, ibtidai siniflərdə tədris edilən fənnlər arasında Azrbaycan dili birinci yerdə dayanır və bu fənnin əsas hədəflərindən biri şagirdlərdə nitqi inkişaf etdirmək, onların mükəmməl nitqə yiyələnmələrini təmin etməkdir. İbtidai siniflərdə şagirdlərin nitqinin inkişaf etdirilməsi üzrə iş aparılarkən qeyd etdik ki, müxtəlif üsullardan istifadə etmək daha çox səmərə verə bilər. Təbii ki, hər bir üsul öz növbəsində şagirdlərdə nitqin inkişafına xidmət edəcəkdir.

## ƏDƏBİYYAT


1. Abdullayev N.Ə.(2013). Nitq mədəniyyətinin əsaslar/N.Ə Abdullayev.- Bakı:Elm və təhsil,- s.8
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları(I-IV siniflər)/-Bakı: Mütərcim,-2008.- s.
3. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təşmilləşdirilməsi haqında" 18 iyun 2001-ci il tarixli fərmanı// -Bakı: Azərbaycan müəllimi,- 1-7 iyul 2001.
4. Cəfərova N. B.(2018). Nitq inkişafı üzrə işin metodikası. Dərslik. bakı: ADPU,- 234 s.
5. Kərimov Y. (2003). Ana dilinin tədrisi metodikası. Bakı: Nasir,- 539 s.
6. Kərimov Y. (2013).İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Səda,- 552 s.
7. Xəlilov V.(2007). İbtidai siniflərdə inkişafetdirici texnologiyalardan istifadənin başlıca prinsipləri. Bakı: Mütərcim,- 103 s.



## SUMMARY

## LINGUISTIC FOUNDATIONS OF SPEECH DEVELOPMENT

One of the main subjects taught in primary schools is the Azerbaijani language. The Azerbaijani language subject in front of very big and multifaceted The main goal of this subject is to formalize general speech and language skills and thereby ensure that students acquire a culture of speech. In Azerbaijani language lessons students speech development important importance acquisition should do in this direction certain events application We know that language is constantly evolving and is a developing phenomenon. In the teaching of the language students language is mastered and speech using it in the process They do. Correct speech The way to master language how depends on mastery. That's why also Azerbaijan in the language main purpose students' correct, coherent speech their acquisition provide Today the student rich dictionary if it does not have the reserve, grammatical and semantically your words to nature country if not , the words in the right place in the sentence work if he doesn't know how to express his thoughts correctly will not have either. Note Let's make the students The development of speech was not a blind natural process . dictionary depends on the correct organization of work on . The main lexical unit of the language is the word. In this regard, the lexical, grammatical , phonetic properties of the word , semantic valence , sentence structure lexical -grammatical within attitude should know and sentence must be achieved in its proper use . Sometimes student in his speech attention pulling One of the points is that they break the word order in the sentence are cases . In the sentence the order of words in our language relevant in the way to wait to know too much for a student important , opposite In that case , he/she will be able to convey his/her thoughts correctly to the interviewer. cannot . In this study, student Focus on speech development preserved , important thoughts presentation has been done .



**Key words:** Azerbaijani language, speech development, vocabulary work on, sentence analysis, oral and written speech



## РЕЗЮМЕ

## ЛИНГВИСТИЧЕСКИЕ ОСНОВЫ РАЗВИТИЯ РЕЧИ

Одним из основных предметов, преподаваемых в начальной школе, является азербайджанский язык. Предмет Азербайджанский язык перед очень большой и многогранный основная цель этого предмета – формализовать общие речевые и языковые навыки и тем самым обеспечить усвоение учащимися культуры речи . На уроках азербайджанского языка студенты развитие речи важный важность приобретение следует сделать в этом направлении определенный события приложение Мы знаем, что язык постоянно развивается и это развивающееся явление . В преподавании языка студенты язык освоен и речь используя его в процессе Они делают . Правильная речь. Путь к овладению языком как зависит от мастерства . Вот почему также Азербайджан на языке основной цель правильные, последовательные ответы студентов речь их приобретение предоставлять Сегодня студент богатый словарь если у него нет резерва, грамматического и семантически слов к природе страна если нет, то слова в нужном месте в предложении работа если он не умеет правильно выражать свои мысли не будет ни того, ни другого . Примечание. Давайте сделаем так, чтобы студенты Развитие речи не было слепым естественным процессом . словарь От правильной организации работы зависит … Основная лексическая единица языка – слово. В связи с этим важны лексические, грамматические, фонетические свойства слова, семантическая валентность, структура предложения лексико -грамматический внутри отношение должен знать и предложение должно быть достигнуто при правильном использовании.

Иногда студент в своей речи внимание тянуть одним из недостатков является то, что они нарушают порядок слов в предложении являются падежами. В предложении порядок слов в нашем языке соответствующий на пути  ждать знать слишком много для студента важно, напротив в этом случае он/она сможет правильно донести свои мысли до интервьюер не может. В этом исследовании, студент Упор на развитие речи сохранившийся , важный мысли презентация было сделано .
**Ключевые слова :** Азербайджанский язык, развитие речи, словарный запас работа над предложением анализ , устная и письменная речь